# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT FONDUNUN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətinin normativ-hüquqi əsaslarının müəyyən edilməsi və Fondun vəsaitinin səmərəli idarə olunması və istifadəsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar" təsdiq edilsin (əlavə edilir).

2. Dövlət Neft Fondunun vəsaitinin yığılması və istifadəsi şərtlərinin müəyyən edilməsi məqsədi ilə Neft Fondunun gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası qaydaları aşağıdakı prinsiplərə əsaslanaraq 1 (bir) ay müddətində hazırlansın və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin:

- Neft Fondunun illik gəlir və xərclər proqramının tərtibi və icrası Azərbaycan Respublikasının makroiqtisadi siyasətinə və dövlət idarəetmə sektorunun gəlir və xərclərinin ümumiləşdirilməsi prinsipinə əsaslanaraq Neft Fondu tərəfindən Maliyyə Nazirliyi ilə əlaqələndirilməklə həyata keçirilir;
- Neft Fondunun bütün xərcləri Fondun təsdiq edilmiş illik gəlir və xərclər proqramı çərçivəsində həyata keçirilir;
- Neft Fondunun Əsasnaməsinə uyğun olaraq Fondun vəsaiti hesabına həyata keçirilən layihə və proqramların maliyyələşdirilməsi ilə bağlı xərclər dövlət xəzinədarlığı vasitəsi ilə icra edilir.

3. Neft Fondunun fəaliyyətinə əlavə şəffaflıq gətirilməsi məqsədi ilə Fondun fəaliyyəti, o cümlədən gəlir və xərcləri barədə məlumatlar mütəmadi olaraq mətbuatda dərc edilsin.

4. Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 19 iyun 2001-ci il.***
***№ 511***